# KİTABXANALARDA İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİ MƏSƏLƏLƏRİ

**Sona Əli-zadə**

*BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı*

Müasir şəraitdə kitabxanalar kommunikasiya vasitəsi kimi olduqca böyük rol oynamaqla cəmiyyətin informasiyalaşdırılması prosesində çox əhəmiyyətli iş görürlər. Bəşəriyyətin tarixi inkişaf mərhələlərində olduğu kimi, son onillikdə də informasiya elmi-texniki və sosial tərəqqinin mühüm vasitələrindən biri olmuş, hazırda isə cəmiyyətin informasiyalaşdırılması ilə əlaqədar aparıcı qüvvəyə çevrilmişdir. Bununla əlaqədar olaraq yeni kitabxana-informasiya mühiti formalaşdırılmışdır.

Kitabxana və informasiya mərkəzlərinin kommunikasiya və texniki vasitələri birlikdə ölkənin informasiya infrastrukturunu təşkil edir. Bu isə ənənəvi kitabxana proseslərinin avtomatlaşdırılmasını, kitabxanalarda informasiya texnologiyalarının tətbiqini tələb edir. Kitabxana proseslərinin avtomatlaşdırılması isə, öz növbəsində müasir kitabxana-informasiya texnologiyalarının tətbiqi ilə sıx əlaqədardır.

Kitabxana-informasiya fəaliyyətində texnologiyaların tətbiqi proses və əməliyyatların sürətli, keyfiyyətli və daha məzmunlu həyata keçirilməsi məqsədilə kitabxanaçı əməyinin yüngülləşdirilməsinə, istehlakçı vaxtına qənaət edilməsinə, məlumatın operativ, əhatəli və daha dərin emal edilməsinə yönəldilmiş fəaliyyət sahəsidir.

Kitabxana-informasiya texnologiyalarında təyinedici amil istehlakçıdır. İstehlakçının real sorğusu və ya ola biləcəyi proqnozlaşdırılan sorğu kitabxana fəaliyyətində bir çox texnoloji, vasitələrin tətbiqinə istiqamətlənmişdi.

İnformasiya məhsulları və xidmətlərinin istehsalı və onun istifadəçilərə təqdim edilməsi-texnoloji sistem kimi kitabxananın əsas funksiyasıdır.

İstehsalın effektivliyinin qiymətləndirilməsi, təqdim olunan məhsulların və xidmətlərin keyfiyyəti, göstəricilərin elmi əsaslandırılmış sistemini tələb edir.

Kitabxananın istehsal strukturunun təşkili-texnoloji sistemlərin fəaliyyəti və informasiyanın təşkilati prinsiplərinin kitabxana istehsalı prosesində təcrübə baxımından reallaşdırılmasının mahiyyətidir.

Kitabxanalar müxtəlif məqsəd və vəzifələrini həyata keçirmək məqsədi ilə vaxtaşırı təlimatlar, metodiki vasitələr, metodiki tövsiyələr ha-

zırlayırlar ki, bunlar da ənənəvi kitabxana fəaliyyətinin texnoloji proses və əməliyyatlarının həm mahiyyətini, həm alqoritmini, həm də müvafik texniki təchizatı məsələlərini özündə ifadə edirdi.

Kitabxana texnologiyasının əsas komponenti kitabxana prosesləri hesab edilir. Müasir kitabxananın çoxplanlı fəaliyyətinə aşağıdakılar aid edilir:

İstehsal prosesi — Kitabxana fondunun formalaşması, informasiya xidmətinin təşkilində özünü göstərir;

Təminat prosesi — təsərrüfat, təchizat, infrastruktur fəaliyyəti, təmir, profilaktik xidmət, iş şəraiti, avadanlığın işlək vəziyyətinin təmin olunması;

Elmi-tədqiqat prosesi — statistik təhlil, biblioqrafik monitorinq, sosioloji və marketinq tədqiqatları, peşəkar ekspertiza, kitabxana fəaliyyətinin monitorinq və proqnozlaşdırma, innovativ və proqressiv layihələrin hazırlanması və s. fəaliyyətdən;

İdarəetmə prosesləri — strateji və operativ planlaşdırma, maliyyələşdirmə, menecment, texnologiyaların menecmenti, keyfiyyətin menecmenti, innovasiya lahiyələrin öyrənilməsi, tədbiqi və idarə olunması və s. ibarətdir.